

Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.

*Heydər Əliyev, ümummilli lider*


AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

25 may 2023-cü il
cümə axşamı

1933-cü ildən çıxır
№ 20 (3634)


## Rəsmi xronika

*Azərbaycan Prezidenti İlham Əliyev mayın 23-də Seymur Qurban oğlu Mərdəliyevin Azərbaycan Respublikasının Ukraynada fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında sərəncam imzalayıb.*

*Dövlətimizin başçısı mayın 23-də Sultan Ağami oğlu Hacıyevin Azərbaycan Respublikasının Keniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında sərəncam imzalayıb.*

*Ölkəmizin rəhbəri mayın 23-də Sənan İsa oğlu Paşayevin Naxçıvan Muxtar Respublikasının prokuroru təyin edilməsi haqqında sərəncam imzalayıb.*

*Mayın 23-də Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanda ətraf mühitin və təbii sərvətlərin qorunmasında xidmətləri olan bir qrup şəxsin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.*

# AZƏRBAYCANLA LİTVA ARASINDA SİYASİ VƏ İQTİSADİ ƏLAQƏLƏR DAHA DA GÜCLƏNİR



Azərbaycan Prezidenti İlham Əliyevin Litva Respublikasına rəsmi səfəri ölkələrimiz arasında əməkdaşlığın daha da inkişafında yeni səhifə açdı. Aparılan geniş fikir mübadiləsi əsnasında bir çox önəmli məsələ müzakirə edildi, iki ölkənin strateji tərəfdaşlığı bir daha təsdiqləndi. Azərbaycan və Litva prezidentlərinin iştirakı ilə imzalanan sənədlərin əməkdaşlıq münasibətlərinə yeni müsbət dinamika əlavə edəcəyinə inam ifadə olundu. Keçirilən biznes-forum isə biznes dairələri arasında birbaşa təmasların qurulmasında vacib rol oynayacaqdır.

Keçən il Litvanın Prezidenti Gitanas Nauseda ölkəmizdə rəsmi səfərdə olmuşdu. Bu ilin əvvəlində isə Azərbaycan və Litva prezidentləri Davosda görüşmüşdülər. Bu günlərdə dövlətimizin başçısının Litvaya səfəri də təsdiqləyir ki, ölkələrimiz arasında fəal siyasi dialoq aparılır və bu, özünü konkret nəticələrlə göstərir. Siyasi müstəvidə əldə olunmuş razılaşmalar digər sahələrə də müsbət təsir edir. O cümlədən iqdisadi sahələrdə əməkdaşlıq genişlənir və möhkəmlənir. Mayın 22-də Vilnüsdə imzalanan Azərbaycan-Litva sənədləri məhz bunun bariz nümunəsidir. Belə ki, həmin gün "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Litva Respublikasının Ətraf Mühit Nazirliyi arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş", "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Litva Respublikasının Sosial Təhlükəsizlik və Əmək Nazirliyi arasında gənclər siyasəti sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Litva Respublikasının Baş Prokurorluğu arasında 2024-2025-ci illər üçün Əməkdaşlıq Proqramı" imzalanmışdır.

Səfərdə dövlətimizin başçısının Litva Prezidenti ilə geniş tərkibdə görüşü zamanı Gitanas Nauseda Azərbaycanın xüsusilə son 10 ildə əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirmiş, iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsinin, ticarət dövriyyəsinin daha da artırılmasının vacibliyi vurğulanmışdır. Bu xüsusda informasiya texnologiyaları, kibertəhlükəsizlik, bərpaolunan enerji, investisiyalar, nəqliyyat kimi sahələrdə əməkdaşlıq məsələləri, o cümlədən Xəzər dənizi ilə Baltik dənizinin birləşdirilməsinə dair layihələr barəsində müzakirələr, ekoloji təhlükələr haqqında ilkin xəbərdarlıq sisteminin qurulması və tullantıların idarə olunması sahəsində Litva təcrübəsinin Azərbaycanda tətbiqi müzakirə edilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin və Litva Prezidenti Gitanas Nausedanın mətbuata bəyanatları da iki ölkə arasında xoş münasibətlərin və işgüzar əlaqələrin davamlı olduğunu göstərir. Dövlətimizin başçısı bəyanatda bildirmişdir ki, Litva ilə ikitərəfli əməkdaşlıq çərçivəsində eyni zamanda, Avropa İttifaqı-Azərbaycan əlaqələri də önəmli rol oynayır.

Qeyd edək ki, Azərbaycan-Litva strateji tərəfdaşlığına növbəti güclü təkanı həm də keçirilmiş biznes-forum verəcək.

Dövlət başçıları indi bu fürsətləri dəyərləndirmək üçün əsl münasib vaxt olduğunu qeyd etmiş, yaradılan imkanların xüsusən də hazırkı geosiyasi vəziyyətdə əlavə dəyər gətirəcəyinə, daha böyük inkişafa təkan verəcəyinə inamlarını vurğulamışlar.

# VƏTƏN MÜHARİBƏSİ İŞTİRAKÇILARI XİDMƏTƏ QƏBUL OLUNUB



Mayın 22-də daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 132 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 19 nəfəri Vətən müharibəsinin iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov xidmətə qəbulun şəffaflıq və aşkarlıq prinsipləri əsasında keçirildiyini qeyd edib. O, seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.



# NAZİR V.EYVAZOV: "BMT İLƏ FAYDALI ƏMƏKDAŞLIQ DAVAM ETDİRİLİR"



Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov mayın 24-də BMT-nin Narkotiklər və Cinayətkarlıq İdarəsinin Mərkəzi Asiya üzrə nümayəndəsi xanım Aşita Mittalın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Qonağı salamlayan nazir BMT-nin bir çox təsisatları ilə Daxili İşlər Nazirliyi arasındakı sıx əməkdaşlıq əlaqələrinin mövcudluğunu, ölkəmizin BMT-nin terrorçuluğa, transmilli mütəşəkkil cinayətkarlığa, narkotiklərin dövriyyəsinə, qanunsuz miqrasiyaya və insan alverinə qarşı mübarizə üzrə müvafiq Konvensiya və Protokolların iştirakçısı olaraq, Təşkilatın bir çox xüsusi qurum və orqanları ilə faydalı əməkdaşlıq münasibətlərini davam etdirdiyini vurğulayıb.

Səmimi qəbula görə minnətdarlığını bildirən xanım Aşita Mittal Azərbaycanda təhlükəsizlik məsələlərinin uğurla həyata keçirildiyini, hüquq-mühafizə, o cümlədən polis orqanlarının bu istiqamətdə üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəldiklərini xatırladıb, BMT-nin Azərbaycandakı strukturları ilə Daxili İşlər Nazirliyi arasındakı əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminliyini ifadə edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

*Zeyni Hüseynov,*
*polis baş leytenantı*

# Medallar təqdim olunub



Mayın 23-də Nəsimi Rayon Polis İdarəsində Vətən müharibəsi iştirakçıları ilə görüş keçirilib.

**İdarə rəisi, polis polkovniki Mirnəmət Mirbabayev** Nazirlər Kabinetinin müvafiq sərəncamları əsasında "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif olunmuş Rayon Polis İdarəsinin Post-Patrul Xidməti Bölüyünün polis nəfərləri, polis kiçik serjantları Elnur Bayramlıya və Lazım Lazımlıya medal dəstini təqdim edib. Dövlət təltiflərinin ali dərəcəli mükafat olduğunu və bu adı daşımağın böyük məsuliyyət tələb etdiyini bildirən M.Mirbabayev onlara xidməti vəzifələrin icrasında daima qanunun aliliyini rəhbər tutmalarını, ictimai asayişin, eləcə də təhlükəsizliyin təmin olunmasında əzmkarlıq nümayiş etdirmələrini tövsiyə edib.

# Əməkdaşımız erməni təxribatından danışıb



**Futbolun Mühafizəsi və Təhlükəsizliyi üzrə Avropa Ekspertlər Qrupunun Stokholm şəhərində növbəti iclası keçirilib. İclasa Milli Futbol Məlumat Məntəqəsində Daxili İşlər Nazirliyinin əlaqələndirici zabiti – Beynəlxalq Əməkdaşlıq İdarəsinin baş inspektor-tərcüməçisi, polis mayoru Vaqif Əzizov qatılıb.**

Tədbirdə açılış nitqi ilə çıxış edən Avropa İttifaqının Futbol Təhlükəsizliyi üzrə Ekspertlər Qrupunun sədri Adrian Dinka Almaniyada təşkili planlaşdırılan AVRO-2024 çempionatı ərəfəsində görülən işlərlə bağlı ötən ilin hesabatını və təhlükəsizlik tədbirlərinin prezentasiyasını edib.

Daha sonra Şimali Makedoniya, Latviya, Yunanıstan və Finlandiyanın Milli Futbol Məlumat məntəqələrinin yeni təyin olunmuş əlaqələndirici zabitləri iştirakçılara tanıdılıb.

"Beynəlxalq Əməkdaşlıq" İşçi Qrupunun üzvlərinin iştirakı ilə keçirilmiş dəyirmi masada polis mayoru Vaqif Əzizov iştirakçıların diqqətini vacib faktlara çəkib. O, xüsusən Ermənistanda keçirilmiş ağır atletika üzrə Avropa Çempionatında Azərbaycan bayrağının yandırılması barədə danışıb. Bu cür insidentlərin idman tədbirləri zamanı törədildiyinin təəssüf doğurduğunu və daha əvvəllər beynəlxalq futbol yarışlarında Azərbaycanı təmsil edən "Qarabağ" futbol klubuna qarşı müxtəlif təxribatların törədilməsini nəzərə alaraq, qarşıdan gələn oyunlarda müvafiq təhlükəsizlik tədbirlərinin gücləndirilməsinin vacibliyini diqqətə çatdırıb. Eyni zamanda, idman tədbirlərində Azərbaycanın ərazi bütövlüyünə qarşı yönəlmiş təxribat xarakterli banner və bayraqların nümayiş olunmasının qarşısının alınmasının vacibliyini vurğulayıb.

Monitorinq İşçi Qrupunun təşəbbüsü ilə keçirilmiş müzakirələrdə qarşıdan gələn futbol oyunlarından bəhs edilib. Mayın 31-də Budapeşt şəhərində UEFA Avropa Liqasının, iyunun 10-da isə İstanbul şəhərində keçiriləcək futbol üzrə UEFA Çempionlar Liqasının finalları ilə əlaqədar əlaqələndirici zabitlər çıxış ediblər. Həmçinin, Avstraliya və Yeni Zellandiyada keçirləcək FIFA Qadınlararası Dünya Kuboku və turnir çərçivəsində iki ölkənin hüquq mühafizə orqanları tərəfindən təşkil ediləcək təhlükəsizlik tədbirləri barədə məruzələr dinlənilib, 2026-cı ildə ABŞ, Kanada və Meksikada baş tutacaq futbol üzrə Dünya Çempionatı barədə və adıçəkilən ölkələrin hüquq mühafizə orqanları ilə əməkdaşlıq perspektivləri müzakirə olunub.

*Rəşad Mehtiyev*

# "UŞAQLARA DAİR STRATEGİYA"NIN MÜZAKİRƏSİ

## Azyaşlılarla işin səmərəliliyinin artırılması istiqamətində təkliflər irəli sürülüb





Daxili İşlər Nazirliyi Baş İctimai Təhlükəsizlik İdarəsinin təşəbbüsü ilə "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2030-cu illər üçün Fəaliyyət Planı"nın icrası ilə bağlı növbəti müşavirə Sumqayıt Şəhər Polis İdarəsində keçirilib.

İclasda BİTİ-nin rəis müavini, polis polkovniki Əziz Baqişev, Abşeron-Xızı Regional Təhsil İdarəsinin müdiri İlhamə Abdullayeva, Vəkillər Kollegiyasının üzvü, "Üfüq Xeyriyyə Cəmiyyəti İctimai Birliyinin" sədri Nuriyyə Abbasova, eləcə də Sosial Xidmətlər Agentliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Şəhər İcra Hakimiyyətinin səlahiyyətli şəxsləri və digər aidiyyəti dövlət, qeyri hökümət təşkilatlarının nümayəndələri iştirak ediblər.

Müşavirəni giriş sözü ilə açan BİTİ-nin rəis müavini, Ə.Baqişev "Uşaqlar bizim gələcəyimizdir" mövzusunda keçirilən tədbir haqqında məlumat verərək gündəlikdə duran məsələləri iştirakçıların diqqətinə çatdırıb. Qeyd olunub ki, respublikada uşaq hüquqları sahəsində mövcud hüquqi bazanın təkmilləşdirilməsi, uşaqların müdafiəsi sahəsində işlək mexanizmin yaradılması, erkən uşaqlıq dövründə onların inkişafına dövlət dəstəyinin göstərilməsi, habelə uşaqlarla bağlı həyata keçirilən tədbirlərin monitorinqi və qiymətləndirilməsi sisteminin inkişafı "Strategiya"nın əsas hədəfləridir.

Konfransda digər çıxışçılar azyaşlıların sağlam mühitdə tərbiyə olunması, gələcəyin peşəkar kadrları və cəmiyyətimizə layiqli vətəndaş kimi yetişmələri üçün birgə fəaliyyətin vacibliyindən danışıblar. O da vurğulanıb ki, xüsusi hazırlanmış tədbirlər planı əsasında mütəmadi olaraq təhsil müəssisələrində maarifləndirici görüşlər keçirilməli, şagirdlərə təhsilləri barədə tövsiyələr verilməli, həmçinin onlara internet resurslarından, sosial şəbəkələrdən daha faydalı məlumatlar əldə edilməsi məqsədilə istifadə etmələri izah olunmalıdır.

Sonra müşavirədə sözügedən mövzulara bağlı videoçarxlar nümayiş etdirilib.

İclasda yetkinlik yaşına çatmayanlarla işin səmərəliliyinin artırılması istiqamətində gələcəkdə həyata keçirilməsi nəzərdə tutulan təkliflər ətrafında da müzakirələr aparılıb.

*Teymur Əlizadə,*
*polis mayoru*

# "Ağ ölüm"ün qurbanı olmayaq

Polis veteranları cinayətkarlığa qarşı mübarizədə əldə etdikləri zəngin təcrübəni gənc əməkdaşlarla bölüşür, ictimai təhlükəsizliyin təminində, cinayətlərin profilaktikası məqsədi ilə əməli köməklik göstərilməsində bilik və bacarıqlarını əsirgəmirlər.

Bugünlərdə onların iştirakı və Qax Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Qax şəhər 3 saylı, Marsan kənd, Qaşqaçay kənd, Əmircan kənd və Şotavar kənd məktəblərində "Narkotikə yox deyək!" mövzusunda silsilə maarifləndirmə tədbirləri keçirilib.



Tədbirlərdə müasir dövrümüzün ən ağrılı problemlərindən biri olan və cəmiyyətin ciddi bəlasına çevrilən narkomaniyanın mənəvi və maddi zərərlərindən söz açılıb, narkotik vasitə istifadəçilərinin əhatəsində olan insanlara da ciddi təhlükə yaratdığı qeyd edilib.

Çıxışlarda narkotik vasitələrin qanunsuz dövriyyəsi və ona qarşı aparılan mübarizə haqqında geniş məlumat verilib. Qeyd olunub ki, yeniyetmələrin narkomaniyaya qurşanması onların təhsildən yayınmasına, ictimai həyatdan uzaqlaşmasına və ən əsası da sağlamlıqlarının zərbə altında qalmasına səbəb olur. Yeniyetmə və gənclərə zərərli vərdişlərdən uzaq olmaq üçün sağlam həyat tərzinə-idmana, təhsilə daha çox vaxt ayırmaları tövsiyə olunub. Onların antinarkomaniya ruhunda tərbiyə olunmasının vacibliyinə və bu işdə əsas vəzifənin valideynlərin, müəllimlərin və bütün ziyalıların üzərinə düşdüyünə diqqət çəkilib. O da vurğulanıb ki, biliyi, bacarığı olan hər kəs həyatda fəal mövqe tuta, çevrəsindəkilərə örnək ola bilər.

Tədbirin sonunda məktəbliləri maraqlandıran suallar cavablandırılıb.

*A.Nəcəfova*






# Şəhidlərin xatirəsinə abidə ucaldılıb

DİN Daxili Qoşunlarının Zaqataladakı 17074 saylı hərbi hissəsində şəhidlərin xatirəsinə abidə ucaldılıb. Ümumi sahəsi 32 kvadratmetr olan abidədə milli memarlıq elementləri, hərbi ehtiram ənənələri nəzərə alınıb. Üzərində Daxili Qoşunların emblemi və "Şəhidlər unudulmur" sözləri həkk edilən, önündə əbədi məşəl alovlandırılan kompleksdə 44 günlük Vətən müharibəsində Daxili Qoşunların şəhid olmuş 66 hərbi qulluqçusunun, eləcə də hərbi hissənin Birinci Qarabağ müharibəsində şəhadətə ucalmış hərbi qulluqçularının adları və şəkilləri əksini tapıb. Bununla yanaşı, abidənin ətrafında abadlıq işləri görülüb, yaşıllıq zolağı salınıb, işıqlandırma sistemi quraşdırılıb.

Mayın 5-də abidənin açılış mərasimi keçirilib. Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə, Zaqatala Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Vəfadar Orucov, Balakən Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Çingiz Aslanov, Qax Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Vidadi Qurbanov, Zaqatala rayonunun hərbi prokuroru ədliyyə polkovnik-leytenantı Elşən Əliməmmədov, şəhid ailələrinin üzvləri, qazilər və veteranlar, həmçinin digər qonaqlar mərasimdə iştirak ediblər. İştirakçılar tərəfindən ulu öndər Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Dövlət Himni oxunub.





Hərbi hissənin komandiri polkovnik Azər Hüseynov mərasimdə çıxış edib. O, öz çıxışında Daxili Qoşunların respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda şərəfli döyüş yolu keçdiyini, ümummilli liderimiz Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin hərbi qulluqçularımızın Vətən qarşısında xidmətlərini yüksək qiymətləndirdiklərini bildirib. Polkovnik A.Hüseynov daxili işlər naziri və Daxili Qoşunların komandanlığının rəhbərliyi altında qoşunlarda şəhidlərin xatirəsinin əbədiləşdirilməsi istiqamətində böyük işlər görüldüyünü vurğulayıb.

Komandir hərbi hissənin şəhid hərbi qulluqçuları barədə geniş məlumat verib, hər iki Qarabağ müharibəsində onların göstərdikləri fədakarlığı diqqətə çatdırıb. 44 günlük Vətən müharibəsində möhtəşəm hərbi zəfərin qazanılmasına hərbi hissənin xüsusi təyinatlılarının da öz canları və qanları bahasına töhfə verdiklərini söyləyən polkovnik A.Hüseynov şəhid valideynlərinə belə igid oğullar yetişdirdiklərinə görə minnətdarlığını ifadə edib.

Mərasimdə çıxış edən şəhid atası Elxan Abdullayev və qazi Məmməd Hacıyev şəhidlik zirvəsinə ucalmış oğulları xalqımızın heç vaxt unutmadığını, bu gün qalib dövlətdə yaşamağımızın hər birimizdə haqlı qürur hissi yaratdığını deyiblər.

Mərasimin sonunda abidə önünə gül dəstələri qoyulub və xatirə şəkli çəkdirilib. Həmin gün qonaqlar xüsusi təyinatlı dəstənin kazarması ilə də tanış olublar. Onlara şəxsi heyətin təlim-tərbiyəsinin təşkili barədə məlumat verilib, daha sonra vətənpərvərlik mövzusunda söhbətlər aparılıb.

*Yalçın Abbasov,*
*DİN Daxili Qoşunlarının veteranı*

# Kursantların bilikləri sınanıb



Polis Akademiyasında ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş bilik yarışı keçirilib.

IV kurs kursantları arasında DİO-nun inzibati fəaliyyəti fənnindən keçirilən yarışda hər biri 4 nəfərdən ibarət olmaqla 6 komanda iştirak edib.

Yarışın rəsmi hissəsində ulu öndərin və ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət Himni oxunub.




Bu qəbildən olan tədbirlərin təhsilalanların milli dövlətçilik ruhunda formalaşması və peşəkar zabit kadrları olaraq yetişmələrinə xidmət etdiyi xüsusilə qeyd edilib.

Daha sonra DİO-nun inzibati fəaliyyəti kafedrasının müəllimi, polis leytenantı İlkin Ələkbərov tərəfindən yarışın qaydaları və münsiflər heyətinin tərkibi elan edilib. Qaydalara uyğun olaraq bilik yarışı hər biri altı sualdan ibarət olmaqla üç mərhələdə təşkil edilib.

Yarışın sonunda qaliblər müəyyənləşdirildikdən sonra ilk üç yeri tutmuş komandalar mükafat və sertifikatlarla təltif edilib.

*"Polis"*

# Qanvermə aksiyası keçirilib



DİN-in Baş Dövlət Yol Polisi İdarəsinin və Mərkəzi Qan Bankının birgə təşkilatçılığı ilə "Talassemiyasız həyat naminə" proqram layihəsi çərçivəsində Baş İdarənin inzibati binasında qanvermə aksiyası keçirilib.

Talassemiya, hemofiliya və digər qan xəstəliklərindən əziyyət çəkən uşaqlara dəstək olmaq məqsədilə aksiyada Baş İdarənin rəhbərliyi və şəxsi heyəti iştirak edib.

Aksiyaya könüllü olaraq qatılan 57 polis əməkdaşının sağlamlıq durumu Mərkəzi Qan Bankının xüsusi tibb briqadasının həkim hemotoloqları tərəfindən yoxlandıqdan sonra onlar qan veriblər.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Daxili işlər orqanlarında ilk dəfə

Daxili işlər orqanlarında şəxsi heyətin döyüş və taktiki hazırlıq səviyyəsinin artırılması, eləcə də mənəvi-psixoloji durumunun yüksəldilməsi məqsədilə ilk dəfə olaraq "Paintball" üzrə keçirilən turnir ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub. Yarış DİN-in Baş Mühafizə İdarəsinin hissələri arasında baş tutub. 72 əməkdaşın iştirak etdiyi turnirdə komandalar püşkatmanın nəticələrinə uyğun qarşılaşıblar. Bir neçə gün davam



edən, eyni zamanda, xüsusi maraqla izlənilən mübarizədə **Nəsimi Rayon Mühafizə İdarəsi qalib olub. Neft Emalı Obyektlərinin Mühafizə İdarəsinin komandası II, Səbail və Yasamal Rayon Mühafizə idarələrinin komandaları isə III yerə layiq görülüblər.**

# Şəxsi heyətin döyüş hazırlığı təkmilləşdirilir

DİN-in İdman Cəmiyyətinin təşkilatçılığı ilə Sabunçu Rayon Polis İdarəsində şəxsi heyəti arasında ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş silahsız özünümüdafiə və əlbəyaxa döyüş üzrə yarışa yekun vurulub.

İkimərhələli turnirdə iştirak edən 117 idmançıdan 40-ı ilk turu uğurla adlayıb. Beş çəki kateqoriyası üzrə qaliblərə münsiflər tərəfindən medal, diplom və qiymətli hədiyyələr təqdim olunub.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Müstəntiqlər üçün təlim

Prokurorluq və daxili işlər orqanlarında müstəntiq vəzifəsində xidmət edən əməkdaşlar üçün "Cinayət təqibi zamanı uşaq hüquqlarının üstün mühafizəsi prinsipi" mövzusunda iki günlük təlim keçirilib.

Uşaq hüquqlarının qorunması, uşaqların dindirilməsi zamanı vəkil və psixoloqla təmin edilməsi, bu sahədə məşğələlərin keçirilməsi barədə BMT-nin Uşaq Hüquqları Komitəsinin tövsiyələri əsasında baş tutan təlimə Baş Prokurorluğun, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, eləcə də qeyri hökumət təşkilatlarının nümayəndələri təlimçi qismində qatılıb.

Tədbirə təlimçi kimi dəvət edilən DİN-in Polis Akademiyasının "Cinayət Prosesi" kafedrasının rəisi, polis polkovniki Səyyad Ağayev və Bakı şəhər BPİ-nin baş inspektoru, polis polkovnik-leytenantı Kəmalə Ələkbərova da uşaq hüquqlarının qorunması mövzusu ətrafında dinləyicilər qarşısında çıxışlar ediblər.

*R.Mehtiyev*

# "ASAN xidmət" mərkəzlərində Daxili İşlər Nazirliyinin göstərdiyi xidmətlər üzrə vakant kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə

Daxili İşlər Nazirliyi Salyan, Masallı, Quba, İmişli, Kürdəmir, Şamaxı, Tovuz və Ağcabədi "ASAN xidmət" mərkəzlərində Daxili İşlər Nazirliyinin göstərdiyi xidmətlər üzrə vakant kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.

Müsabiqədə Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrini bitirmiş, yaşı 25-dən 30-dək, boyu 160 santimetrdən yuxarı olan, əvvəllər özü və yaxın qohumları məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən, Salyan, Masallı, Quba, İmişli, Kürdəmir, Şamaxı, Tovuz və Ağcabədi rayonlarında yaşayış yeri üzrə daimi qeydiyyatda olan və yaşayan Azərbaycan Respublikasının qadın cinsli vətəndaşları iştirak edə bilərlər.

Müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, fiziki hazırlıqları və bilik səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılaraq, kompüterdə işləmək bacarıqları olan, məsuliyyətli, diqqətli, ən azı xarici dillərdən birini sərbəst bilən və ailəli şəxslərə üstünlük veriləcəkdir.

Müsabiqə qaliblərinə Azərbaycan Respublikası DİN-in kadrları tərkibinə daxil edilərək müvafiq xüsusi rütbə veriləcək və qanunvericiliklə müəyyən olunmuş qaydada onların daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ olacaqdır.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2023-cü ilin may ayının 1-dən 31-dək Daxili İşlər Nazirliyinin internet saytında **/www.mia.gov.az/** yerləşdirilmiş ərizə formasını və anket məlumatlarını şəxsən dolduraraq elektron poçt vasitəsilə DİN-in Baş Kadrlar İdarəsinin **bki@mia.gov.az** elektron ünvanına göndərməlidirlər.

Müraciət etmiş şəxslər müsabiqədə iştirak etmək üçün dəvət edilərkən aşağıdakı sənədləri təqdim etməlidirlər:

- ***Şəxsiyyət vəsiqəsi;***
- ***Ali təhsil haqqında diplom;***
- ***Əmək kitabçası (olanlar üçün);***

**Əlavə məlumat üçün əlaqə telefonları:**
**şəhər: (012) 590-80-63, (012) 590-80-93**
**daxili: 80-63, 80-93**



2023-cü ilin II yarısı üçün "POLİS"ə, öz qəzetinizə abunə olmağa tələsin!


# İDMAN XRONİKASI

## Uğurlu nəticə



Kikboksinq üzrə Azərbaycanın yeniyetmələr, gənclər və böyüklərdən ibarət yığma komandası 18-21 may tarixlərində İstanbul şəhərində keçirilən "Turkish Open" WAKO dünya kubokunda 13 qızıl, 16 gümüş, 22 bürünc medal qazanıb.

DİN-in İdman Cəmiyyətinin idman-təlim şöbəsinin rəisi, polis polkovnik-leytenantı Eduard Məmmədov 63 kiloqram çəki dərəcəsində 9-cu dəfə dünya kubokunun sahibi olub.

74 kiloqram çəki dərəcəsində Xətai RPİ-nin 37-ci PB-nin YYÇ işləri üzrə inspektoru, polis kapitanı Abbas Tunc, 79 kiloqramda isə Metropolitendə Polis İdarəsinin əməkdaşı, polis serjantı Əhməd Bəşirov gümüş medalla kifayətləniblər.

Qeyd edək ki, Milli Yığma Komandanın baş məşqçisi, **polis baş serjantı Hikmət Hacıyeva** dünya kikboksinq federasiyasının prezidenti Roy Baker tərəfindən "Ən yaxşı məşqçi" mükafatı təqdim edilib.

# Çevik polislərin çevikliyi yoxlanılıb

**DİN Əlahiddə Çevik Polis Alayının xüsusi təyinatlı bölükləri arasında ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi taktiki hazırlıq üzrə birincilik yarışı keçirilib.**



Yarışlara qatılan xüsusi təyinatlıların ələhqazları geyinərək yaralı əməkdaşın təxliyəsi, atəş zolağına yaxınlaşaraq tapançayla təyin olunmuş hədəflərə atəş açılması, bir kilometrədək məsafəni və maneələr zolağını dəf





etmək kimi bacarıqları sınanıb.

***DİN Daxili Qoşunlarının Təlim Mərkəzində keçirilən yarışın yekunlarına əsasən 1-ci Xüsusi Təyinatlı Taborun 2-ci bölüyü birinci yerə çıxıb. İkinci yerə sözügedən taborun 3-cü, üçüncü yerə isə 2-ci Xüsusi Təyinatlı Taborun 3-cü bölüyü layiq görülüb.***

Ulu öndərə həsr olunan taktiki hazırlıq yarışı haqqında qəzetimizə məlumat verən Əlahiddə Çevik Polis Alayının fiziki hazırlıq üzrə inspektoru, polis leytenantı Nuran Qənbərli növbəti analoji tədbirin "Polis Günü" ərəfəsində keçirilməsinin nəzərdə tutulduğunu bildirib.

2023-cü ilin ulu öndər "Heydər Əliyev İli" elan olunması ilə əlaqədar sonrakı aylarda da taktiki təlim yarışlarının, tədbirlərin təşkil edilib keçirilməsi planlaşdırılır. Bu kimi yarışların, eyni zamanda, Alayın şəxsi heyətinin peşəkar vərdişlərinin, peşə hazırlıqlarının yüksəldilməsinə xidmət etdiyini deyən N.Qənbərli bölüklər və əməkdaşlar arasında bu sahədə yaranmış sağlam rəqabətin göstəricilərin bir qədər də yaxşılaşmasına imkan verdiyini əlavə edib.

Onun sözlərinə görə, yarışda fərqlənən əməkdaşları təbrik edən **Alayın komandiri, polis polkovniki Ramil Piriyev** qaliblərə qiymətli hədiyyələr, kubok və diplomlar təqdim edib.

Ölkəmizdəki etibarlı sabitliyin təməllərinin məhz ulu öndər Heydər Əliyev tərəfindən atıldığını xatırladan komandir cinayətkarlığa qarşı mübarizədə və ictimai asayişin qorunmasında mühüm vəzifələr icra edən Alayın şəxsi heyətinin, o cümlədən xüsusi təyinatlı polislərin hazırlıq səviyyəsinin daha da artırılmasının önəminə diqqət çəkib.

*"Polis"*

# Həmkarımız Avropa Kubokunu qazandı

**Bu günlərdə Özbəkistanın paytaxtı Daşkənd şəhərində savate (fransız boksu) idman növü üzrə Asiya Kuboku yarışı keçirilib.**

Yarışda 18 ölkədən 380 nəfər idmançı mübarizə aparıb. Milli komandamızın heyətində mübarizə aparan 7 idmançıdan 4-ü qızıl, 3-ü bürünc medal qazanıb.

Təşkil olunan turnirdə həmkarımız, beynəlxalq çempionatların mükafatçısı



Sənan Babazadə 80 kiloqram çəki dərəcəsində bütün raqiblərinə qalib gəlib. Belə ki, S.Babazadənin ilk rəqibi İndoneziya idmançısı olub. Ona asanlıqla qalib gəldikdən sonra, İran İslam Respublikasının idmaçısını məğlub edərək finala vəsiqə qazanıb. Kubok uğrunda döyüşdə S.Babazadə Çin Taybey yetirməsinə imkan verməyib. Finalda idmançımız himni səsləndirməyə müvəffəq olub.

Qeyd edək ki, **polis baş serjantı Sənan Babazadə** Gəncə Şəhər Baş Polis İdarəsinin Xüsusi Təyinatlı Bölüyünün əməkdaşıdır.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Qələbə uğrunda mübarizə apardılar

Slovakiyanın Mixalovtse şəhərində "ground fight", "full contact", "close contact" və "self-deference" növündən kombat ciu-citsu üzrə açıq Avropa çempionatı keçirilib. DİN-in İdman Cəmiyyətinin yetirmələri Vətənimizi 10 idmançı ilə təmsil ediblər.



Çempionatda qadınlardan Fidan Yusifova (62 kq) "ground fight" və "self defence" versiyalarında 1-ci olub. Otuz altı yaşdan yuxarı idmançıların yarışında Ceyhun Hüseynov (93 kq) və Məğrur Əhmədov (85 kq) "full contact" versiyasında qızıl medal qazanıblar. 18-35 yaşlı idmançıların yarışında "ground fight" kateqoriyasında Sabir Həsənov (85 kq) ikinci, Şirin Şirinov (57 kq) və Səid Qəmbərli (63 kq) üçüncü olublar. Təmsilçimiz Amir Abdi 14-15 yaşlı idmançıların mübarizəsində "ground fight" versiyasında bürüncl kifayətlənib. M.Əhmədov "ground fight" və "close kontact" versiyalarında gümüş, Ş.Şirinov və A.Abdi "close contact" kateqoriyasında da bürünc medala yiyələniblər.

Komandamız DİN-in İdman Cəmiyyətinin əməkdaşı, Fəxri bədən tərbiyəsi və idman işçisi, Əməkdar məşqçi Rəsul Məmmədovun rəhbərliyi altında uğurla çıxış edərək çempionatı 12 medalla başa vurub..

Qeyd edək ki, R.Məmmədov Avropa çempionatına baş hakim qismində dəvət alıb və onun rəhbərliyi altında həmin yarışın hakim briqadaları idarə olunub. Həmçinin R.Məmmədov Beynəlxalq kombat ciu-citsu Federasiyasının Hakimlər komitəsinin sədridir və dəfələrlə dünya, Avropa və Asiya çempionatlarını baş hakim kimi idarə edib.

*R.Vəliyev*

# Polis övladı çempion oldu

**Azərbaycanın Birinci vitse-prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyeva mayın 21-də qrup hərəkətləri komandamızın Bakıda keçirilən bədii gimnastika üzrə 39-cu Avropa çempionatının qalibi olması münasibətilə təbrik edib.**

Mehriban Əliyeva instaqram hesabındakı paylaşımda parlaq qələbə qazanan gimnastlarımıza ürək sözlərini çatdırıb: "Ura! Sizi təbrik edir, sizinlə fəxr edirəm! Çox möhtəşəmsiniz! Əməyinizə, qələbə əzminizə, gözəlliyinizə və zərifliyinizə görə çox sağ olun!"

Qeyd edək ki, Güllü Ağalarzadə, Ləman Əlimuradova, Kamilla Əliyeva, Zeynəb Hümmətova, Yelizaveta Luzan və Darya Sorokinadan ibarət komandamız üç lent və iki topla hərəkətlərdə uğurla çıxış ediblər. Gimnastlarımızın möhtəşəm çıxışı hakimlər tərəfindən 32,250 xalla qiymətləndirilib.

***Onu da xatırladaq ki, gimnastlarımızdan biri, Güllü Ağalarzadə DİN-in Baş Mühafizə İdarəsinin baş inspektoru, polis polkovnik-leytenantı Etibar Ağalarovun qızıdır.***

*"Polis"*


POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9860
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Çapa imzalanmışdır 17:00
Qiyməti 40 qəpik